BAKI BEYNƏLXALQ
MULTİKULTURALİZM MƏRKƏZİ
BAKU INTERNATIONAL MULTICULTURALISM CENTRE

# AZƏRBAYCANA MARAQ AZƏRBAYCANA MƏHƏBBƏTƏ ÇEVRİLİR

(AZƏRBAYCAN MULTİKULTURALİZMİ
YERLİ VƏ ƏCNƏBİ TƏLƏBƏLƏRİN GÖZÜ İLƏ)

**IV Virtual Dəyirmi masa, 2015**

# ИНТЕРЕС К АЗЕРБАЙДЖАНУ ПЕРЕРАСТАЕТ В ЛЮБОВЬ К АЗЕРБАЙДЖАНУ

(АЗЕРБАЙДЖАНСКИЙ МУЛЬТИКУЛЬТУРАЛИЗМ
ГЛАЗАМИ МЕСТНЫХ И ИНОСТРАННЫХ СТУДЕНТОВ)

**IV Виртуальный Круглый стол, 2015**

# INTEREST IN AZERBAIJAN GROWS INTO LOVE FOR AZERBAIJAN

(AZERBAIJANI MULTICULTURALISM THROUGH
THE EYES OF LOCAL AND FOREIGN STUDENTS)

**4th Virtual Round Table, 2015**

BAKI 2015







3



4

*Üz qabığının əks tərəfində və toplunun 1-ci səhifəsində:*

1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkədəki dini icmaların rəhbərləri ilə Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadənin müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında açdığı iftar süfrəsində (17 iyul 2014-cü il).

2. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkədəki dini icmaların rəhbərləri ilə Bakı və Azərbaycan Yeparxiyasının Pravoslav Dini-Mədəniyyət Mərkəzinin açılışında (15 noyabr 2013-cü il).

3. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda Müqəddəs Məryəm Ana katolik kilsəsinin rəsmi açılışında (7 mart 2007-ci il).

4. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva yəhudilərin kompakt yaşadıqları Qubanın Qırmızı qəsəbəsində yeni salınmış Heydər Əliyev bağında yəhudi icmasının nümayəndələri ilə (18 sentyabr 2013-cü il).

*На обратной стороне обложки и на 1-ой странице сборника:*

1. Президент Азербайджанской Республики Ильхам Алиев вместе с лидерами религиозных общин на церемонии ифтар, посвященной священному празднику Рамазан, организованной председателем управления мусульман Кавказа Аллахшукуром Пашазаде в своей резиденции (17 июля, 2014 г.)

2. Президент Азербайджанской Республики Ильхам Алиев с представителями религиозных общин страны на открытии православного религиозно-культурного центра Бакинской и Азербайджанской Епархии. (15 ноября 2013 г.).

3. Президент Азербайджанской Республики Ильхам Алиев на официальном открытии католической церкви Святой Девы Марии (7 марта, 2007 г.).

4. Президент Азербайджанской Республики Ильхам Алиев и Первая Леди Азербайджана, президент фонда Гейдара Алиева Мехрибан Алиева с представителями еврейской общины в недавно заложенном саду Гейдара Алиева в Красной Слободе – месте компактного проживания евреев (18 сентября 2013 г.).

*In the back side of the cover and on the 1st page of the volume:*

1. His Excellency Mr. Ilham Aliyev, President of the Republic of Azerbaijan, in the Iftar Ceremony on the occasion of the Holy Month of Ramadan organized by the Chairman of the Clerical Office of Caucasian Muslims Sheikh –ul Islam Allahshukur Pashazade at his residence with the heads of religious communities. ( July 17, 2014).

2. His Excellency Mr. Ilham Aliyev , President of the Republic of Azerbaijan, with the heads of religious communities of Azerbaijan attending opening ceremony of the Orthodox Religious- Cultural Center of Baku and Azerbaijan Eparchy ( November 15, 2013).

3. His Excellency Mr. Ilham Aliyev , President of the Republic of Azerbaijan, in the official opening of the Catholic Church of Holy Virgin Maria ( March 7, 2007).

4. His Excellency Mr. Ilham Aliyev , President of the Republic of Azerbaijan, and the Azerbaijan's First Lady Mrs. Mehriban Aliyeva, the President of Heydar Aliyev Foundation with representatives of Jewish community in newly built Heydar Aliyev garden, Red Village, Guba region ( September 18, 2013).

BAKI BEYNƏLXALQ
MULTİKULTURALİZM MƏRKƏZİ
BAKU INTERNATIONAL MULTICULTURALISM CENTRE

# AZƏRBAYCANA MARAQ AZƏRBAYCANA MƏHƏBBƏTƏ ÇEVRİLİR

(AZƏRBAYCAN MULTİKULTURALİZMİ
YERLİ VƏ ƏCNƏBİ TƏLƏBƏLƏRİN GÖZÜ ILƏ)

**IV Virtual Dəyirmi masa, 2015**

---

# ИНТЕРЕС К АЗЕРБАЙДЖАНУ ПЕРЕРАСТАЕТ В ЛЮБОВЬ К АЗЕРБАЙДЖАНУ

(АЗЕРБАЙДЖАНСКИЙ МУЛЬТИКУЛЬТУРАЛИЗМ
ГЛАЗАМИ МЕСТНЫХ И ИНОСТРАННЫХ СТУДЕНТОВ)

**IV Виртуальный Круглый стол, 2015**

---

# INTEREST IN AZERBAIJAN GROWS INTO LOVE FOR AZERBAIJAN

(AZERBAIJANI MULTICULTURALISM THROUGH
THE EYES OF LOCAL AND FOREIGN STUDENTS)

**4th Round table, 2015**

BAKI 2015

Redaksiya heyəti:
AMEA-nın həqiqi üzvü Kamal Abdullayev (*baş redaktor*),
AMEA-nın həqiqi üzvü İsa Həbibbəyli, prof. Etibar Nəcəfov (*baş redaktorun müavini*),
prof.Azad Məmmədov, prof. İlham Məmmədzadə, prof.Asif Hacıyev, dosent Oktay Səmədov,
dosent Seyfəl Həsənov, dosent Nəriman Qasımoğlu, Vidadi Rzayev (*məsul katib*)

Редакционная коллегия:
действительный член НАНА Камал Абдуллаев (*главный редактор*)
действительный член НАНА Иса Габиббейли, профессор Этибар Наджафов (*заместитель главного редактора*), проф. Азад Мамедов, проф. Ильхам Мамедзаде, проф. Асиф Гаджиев,
доцент Октай Самедов, доцент Сейфал Гасанов, доцент Нариман Гасымоглу,
Видади Рзаев (*ответственный секретарь*)

Editorial board:
Kamal Abdullayev – Full Member of the Azerbaijan National Academy of Sciences ( ANAS) ( *chief editor*)
Isa Habibbayli – Full Member of the ANAS, Prof. Etibar Najafov (*Deputy Editor*),
Prof. Azad Mammadov, Prof. Ilham Mammadzada, Prof. Asif Hajiyev, Ass. Prof. Oktay Samadov,
Ass. Prof. Seyfal Hasanov, Ass. Prof. Nariman Gasimoghlu,
Vidadi Rzayev (*executive secretary*)

© BBMM, 2015

«Xarici ölkə universitetlərində «Azərbaycan multikulturalizmi» fənninin tədrisi: problemlər və perspektivlər» mövzusunda təşkil olunmuş dəyirmi masanın iştirakçıları:

Участники круглого стола «Преподавание предмета «Азербайджанский мультикультурализм» в зарубежных странах: проблемы и перспективы»:

Participantis in the virtual round table «Teaching the Course "Azerbaijani Multiculturalism" at Universities abroad: challenges and perspectives»



ETİBAR NƏCƏFOV
professor, Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Xidmətinin baş məsləhətçisi (Azərbaycan):

ЭТИБАР НАДЖАФОВ
профессор, главный консультант Службы Государственного Советника по вопросам мультикультурализма, религии и межнациональных отношений Азербайджанской Республики (Азербайджан)

ETIBAR NAJAFOV
Professor, Chief Advisor to the Service of the Counsellor of State of the Republic of Azerbaijan for Multiculturalism and Interethnic and Religious Affairs (Azerbaijan):



ALEKSANDRA DEROMA
Sapienza Universitetinin tələbəsi (İtaliya)

АЛЕКСАНДРА ДЕРОМА
Студент Университета Ла Сапиенза (Италия)

ALESSANDRA DEROMA
a student of the Sapienza University (Italy)



ƏHMƏD ABABNEH
Sapiyenza Universitetinin tələbəsi (İtaliya)

АХМАД АБАБНЕХ
студент Университета Ла Сапиенза (Италия)

AHMAD ABABNEH
a student of the Sapienza University of Rome (Italy)



ŞÜKUFƏ ƏHMƏDLİ
Azərbaycan Texniki Universitetinin tələbəsi (Azərbaycan):

ШУКЮФА АХМЕДЛИ
студентка Азербайджанского технического университета (Азербайджан)

SHUKUFA AHMADLI
a student of the Azerbaijan Technical University (Azerbaijan)



ALEKSEY XARİTONYUK
Minsk Dövlət Linqvistik Universitetinin tələbəsi (Belarus)

АЛЕКСЕЙ ХАРИТОНЮК
студент Минского государственного лингвистического университета (Беларусь)

ALEXEY KHARITONYUK
a student of the Minsk State Linguistics University (Belarus)



ANASTASİYA YURÇENKO
Belarus Dövlət Universitetinin tələbəsi (Belarus)

АНАСТАСИЯ ЮРЧЕНКО
студентка Белорусского государственного университета (Беларус)

ANASTASIYA YURCHENKO
a student of the Belarusian State University (Belarus)



YEVGENİYA ŞİLYAYEVA
Ural Federal Universitetinin tələbəsi (Rusiya)

ЕВГЕНИЯ ШИЛЯЕВА
студентка Уральского федерального университета (Россия)

YEVGENIYA SHILYAYEVA
a student of the Ural Federal University (Russia)



FRANÇESKA EKVESTRE
Sapiyenza Universitetinin tələbəsi (İtaliya)

ФРАНЧЕСКА ЭКВЕСТРЕ
студентка Университета Ла Сапиенза (Италия)

FRANCESCA EQUESTRE
a student of the Sapienza University (Italy)



GEDİMİNAS LASKAUSKAS
Vitautas Maqnus Universitetinin tələbəsi (Litva)

ГЕДИМИНАС ЛАСКАУСКАС
студент Университет Витаутаса Великого (Литва)

GEDIMINAS LASKAUSKAS
a student of the Vytautas Magnus University (Lithuania)



JANNET NİKOLOVA
Müqəddəs Kliment Oxridski adına Sofiya Universitetinin tələbəsi (Bolqarıstan)

ЖАННЕТ НИКОЛОВА
студент Софийского университета им. Св. Климента Охридского (Болгария)

ZHANNET NIKOLOVA
a student of the Sofia University St Kliment Ohridski



XUMAR ƏVƏZLİ
Azərbaycan Dövlət iqtisad Universitetinin tələbəsi (Azərbaycan)

ХУМАР ЭВЕЗЛИ
студентка Азербайджанского государственного экономического университета (Азербайджан)

KHUMAR EVEZLI
a student of the Azerbaijani State Economic University (Azerbaijan)



KONSTANTİN TSERTSVADZE
Tbilisi Dövlət Universitetinin tələbəsi (Gürcüstan)

КОНСТАНТИН ЦЕРЦВАДЗЕ
студент Тбилисского государственного университета (Грузия)

KONSTANTIN TSERTSVADZE
a student of the Tbilisi State University (Georgia)



MARİAM OKREŞİDZE
Tbilisi Dövlət Universitetinin tələbəsi

МАРИАМ ОКРЕШИДЗЕ
студентка Тбилисского государственного университета

MARIAM OKRESHIDZE
a student of the Tbilisi State University



MİKELE ZANESSİ
Milan Universitetinin tələbəsi (İtaliya)

МИКЕЛЕ ЗАНЕССИ
студент Миланский университет (Италия)

MICHELE ZANESSI
a student of the Milan University (Italy)



MOMÇİL ŞOPOV
Müqəddəs Kliment Oxridski adına Sofiya Universitetinin tələbəsi (Bolqarıstan)

МОМЧИЛ ШОПОВ
студент Софийского университета им. Св. Климента Охридского (Болгария)

MOMCHIL SHOPOV
a student of the Sofia University St Kliment Ohridski (Bulgaria)



NATALİYA NİKOLAYEVA
Ural Federal Universiteti (Rusiya)

НАТАЛИЯ НИКОЛАЕВА
студентка Уральского федерального университета (Россия)

NATALYA NIKOLAYEVA
a student of the Ural Federal University (Russia)



NİNO JVANİYA
Tbilisi Dövlət Universitetinin tələbəsi (Gürcüstan)

НИНО ЖВАНИЯ
студентка Тбилисского государственного университета (Грузия)

NINO ZHVANIA
a student of the Tbilisi State University (Georgia)



SEVİNC CABBARLI
Bakı Slavyan Universitetinin tələbəsi (Azərbaycan)

СЕВИНДЖ ДЖАББАРЛЫ
студентка Бакинского славянского университета (Азербайджан)

SEVINJ JABBARLI
a student of the Baku Slavic University (Azerbaijan)



."Yay məktəbi" iştirakçıları mühazirə dinləyərkən, Nabran.



Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət Müşavirliyi Xidmətinin əməkdaşları
Anna Bayramova, Sərraf Hüseynov və "Avroviziya- 2011" mahnı müsabiqəsinin qalibi Eldar Qasımov
"Azərbaycanda gənclər siyasəti " mövzusunda "Yay məktəbi" iştirakçılarına mühazirə oxuyurlar, Şahdağ hoteli, Qusar.

# Azərbaycana maraq
# Azərbaycana məhəbbətə çevrilir

(Azərbaycan multikulturalizmi
yerli və əcnəbi tələbələrin gözü ilə)

# Redaksiyadan

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM) 2014-2015-ci tədris ilinin yaz semestrində ilk dəfə olaraq 7 xarici ölkə universitetində - Bolqarıstan Respublikasının Müqəddəs Kliment Oxridski adına Sofiya Universiteti, Gürcüstan Respublikasının İvane Cavaxişvili adına Tbilisi Dövlət Universiteti, Rusiya Federasiyasının Ural Federal Universiteti, Litva Edukoloji Universiteti, Çexiya Respublikasının Karlov Universiteti, İtaliya Respublikasının La Sapienza Universiteti və Belarus Dövlət Universitetində "Azərbaycan Multikulturalizmi" fənnini tədris etdi. Eyni zamanda bu fənn bir sıra Azərbaycan universitetində də tədris olunmağa başladı.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin uğurla həyata keçirdiyi "Azərbaycan Multikulturalizmi" fənninin xarici ölkə və yerli universitetlərdə tədris olunması" layihəsinin tərkib hissəsi, daha konkret desək, davamı kimi cari ilin 21 iyul – 01 avqust 2015-ci il tarixlərində xarici və Azərbaycan universitetlərinin tələbələri üçün Azərbaycanın səfalı güşələrindən biri olan Nabranda "Multikulturalizm Azərbaycanın həyat tərzi kimi: öyrən, araşdır, paylaş" adlı beynəlxalq "Yay məktəbi" keçirildi. "Yay məktəbi"ndə iştirak etmək üçün 49 ölkədən 1500-dən çox müraciət daxil oldu. Seçim nəticəsində 12 xarici ölkədən olan 49 əcnəbi, eləcə də 19 yerli tələbə bu məktəbdə iştirak hüququ qazandı. İlk "Yay məktəbi"ndə 23 yerli və əcnəbi mühazirəçi iştirak etdi. "Yay məktəbi" çərçivəsində 12 mühazirə, 2 dəyirmi masa, 3 görüş, 1 diskussiya təşkil olundu. Proqrama əsasən bu tədbirdə Almaniyanın Augsburg Universitetinin professoru Klaus Volf, Azərbaycan Respublikası Gənclər və İdman nazirinin müavinləri İntiqam Babayev və İsmayıl İsmayılov, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov, Dağ Yəhudiləri icmasının sədri Milix Yevdayev, Ural Federal Universitetinin Avropa araşdırmaları kafedrasının müdiri, prof. Aleksandr Gennadyeviç Nesterov,

Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirliyi xidmətinin əməkdaşları prof. Etibar Nəcəfov, prof. Həcər Verdiyeva, Anna Bayramova, Sərraf Hüseynov, Bakı Slavyan Universitetinin (BSU) Azərbaycan ədəbiyyatı kafedrasının müdiri prof. Rəhilə Qeybullayeva, Eurovision - 2011 mahnı müsabiqəsinin qalibi, BSU-nun məzunu Eldar Qasımov mühazirələrlə çıxış etmişlər; Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin üzvü prof. Sahibə Qafarovanın və BBMM-in icraçı direktoru prof.Azad Məmmədovun iştirakı ilə "Azərbaycanın dövlət siyasətində tolerantlıq və multikulturalizm" və Hayfa Universitetinin (İsrail) doktorantı, beynəlxalq əlaqələr üzrə ekspert Arye Qutun iştirakı ilə "Azərbaycanda törədilmiş soyqırım cinayətləri, Qarabağ müharibəsi" mövzusunda iki dəyirmi masa təşkil olunmuşdur; Azərbaycan Respublikası millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının sədri akademik Kamal Abdullayevlə, Azərbaycanın əməkdar incəsənət xadimi, yazıçı Natiq Rəsulzadə ilə və Azərbaycan Yaradıcılıq Fondunun nümayəndəsi, şair Qismət Rüstəmovla görüşlər keçirilmişdir; AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun direktoru, prof. İlham Məmmədzadənin və BBMM-in analitika şöbəsinin müdiri dosent Nəriman Qasımzadənin rəhbərliyi altında "Yay məktəbi" iştirakçıları ilə "Avropada multikulturalizm siyasətinin problemləri" mövzusunda diskussiya aparılmışdır; Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) icraçı direktoru prof. Azad Məmmədovun, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun icraçı direktoru Oktay Səmədovun və Bakı Slavyan Universitetinin rektoru prof. Asif Hacıyevin iştirakı ilə təqdimatlar keçirilmişdir.

Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirliyi xidmətinin "Azərbaycana maraq Azərbaycana məhəbbətə çevrilir (Azərbaycan multikulturalizmi yerli və əcnəbi tələbələrin gözü ilə)" mövzusunda təşkil etdiyi növbəti virtual "dəyirmi masa"da "Yay məktəbi"ndə iştirak etmiş xarici ölkə və Azərbaycan universitetlərinin tələbələri ilə bu tədbir ətrafında müzakirələr aparılır.



**Etibar Nəcəfov - professor, Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət Müşaviri Xidmətinin baş məsləhətçisi (Azərbaycan):**

Azərbaycan multikulturalizminin təbliği işində yeni uğurlu addımın atılması, əlbəttə ki, ölkə Prezidenti cənab İlham Əliyevin qarşımızda qoyduğu ideoloji hədəflərdən biridir. Bizim bu sahədəki işimiz perspektivdə geniş, çoxşaxəli strateji fəaliyyətə əsaslanır. Haqqında söhbət gedən "Yay məktəbi" Nabran Təhsil İstirahət Mərkəzində baş tutdu. Fürsətdən istifadə edərək mən "Yay məktəbi" iştirakçıları adından bu tədbirin təşkil olunmasında öz köməyini əsirgəməmiş Azərbaycan Həmkarlar İttifaqları konfederasiyasının rəhbərliyinə minnətdarlığımızı bildirmək istəyirəm.

"Yay məktəbi" layihəsi Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin "Azərbaycan multikulturalizmi" fənninin xarici ölkə universitetlərində tədris olunması" ilə bağlı işi davam etdirmişdir. Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdullayevin qeyd etdiyi kimi, əgər "Azərbaycan multikulturalizmi" fənninin xarici ölkə universitetlərində tədris olunmasının əsas məqsədi ölkəmizin multikulturalizm sahəsində qazandığı təcrübəni xarici ölkələrdə yaymaq və əcnəbi tələbələrdə Azərbaycana maraq oyatmaq idisə, "Yay məktəbi" layihəsinin əsas məqsədi bu marağı sevgiyə çevirmək, onları Azərbaycanın əsl dostları etmək idi.

"Dəyirmi masa"da iştirak edən yerli və əcnəbi tələbələri salamlayaraq, mən əvvəlcə onlara belə bir sualla müraciət etmək istəyirəm: "Yay məktəbində iştirakınız Azərbaycan multikulturalizmi və bütövlüklə Azərbaycan haqqında biliklərinizi zənginləşdirdimi?



**Anastasiya Yurçenko - Belarus Dövlət Universiteti (Belarus)**:

«Azərbaycan multikulturalizmi» fənni bizə 2015-ci ilin fevralından mayına kimi tədris olundu, "Yay məktəbi" isə Azərbaycanda multikultural durumu daha ətraflı öyrənməyə kömək etdi. "Yay məktəbi" sayəsində həm də Azərbaycanda

yaşayan insanlar, bu ölkənin tarixi, Qafqaz Albaniyası, Dağlıq Qarabağ haqqında daha çox məlumat aldıq. Qeyd etmək xoşdur ki, «Azərbaycan multikulturalizmi» fənni oxunarkən aldığımız bilgilər Azərbaycanda gördüklərimizlə üst-üstə düşür. Xaçmaz, Quba və Qusar kimi şəhərlərdə olduğumuz zaman biz dinlərin, müxtəlif dünyagörüşünə malik insanların yanaşı və mehriban yaşadıqlarının şahidi olduq.



**Mariam Okreşidze - Tbilisi Dövlət Universiteti (Gürcüstan):**

Mən Azərbaycanda ilk dəfə oldum və burada özüm üçün çox şeylər kəşf etdim. Bu ölkə məni bütövlükdə qoynuna aldı, dünyagörüşümü zənginləşdirdi. Azərbaycan özünəməxsusluğu ilə məni o dərəcədə heyran etdi və ilhamlandırdı ki, mən indiyə kimi orada gördüyüm hər şeyi emosional şəkildə və təfərrüatları ilə xatırlayıram. «Yay məktəbi»ndə iştirakım zamanı mən Azərbaycanın mədəniyyəti, tarixi və, əlbəttə, adət-ənənələri barədə yetərincə çox şey öyrəndim.



**Jannet Nikolova - Müqəddəs Kliment Oxridski adına Sofiya Universiteti (Bolqarıstan):**

Yazda mən universitetimizdə «Azərbaycan multikulturalizmi» fənnini öyrənmişəm. Bu fənn çox xoşuma gəldi. Olduqca maraqlı və məzmunlu fənndir. Lakin məhz Azərbaycanda bizim üçün keçirilən «Yay məktəbi» mənim multikulturalizmin Azərbaycan modeli haqqında biliklərimi qəti olaraq formaya saldı. «Yay məktəbi» dövründə iştirak etdiyim bütün mühazirələr ətraflı və dolğun idi. Mən «Azərbaycan multikulturalizmi» ilə bağlı özümə maraqlı bütün vacib suallara cavab ala bildim.



**Əhməd Ababneh - Sapiyenza Universiteti (İtaliya):**

Mən İtaliyada magistraturada məşğələlərim zamanı Azərbaycan multikulturalizmi modelini öyrəndim və tədqiq etdim. Sonra isə praktikada bu modelin nəzəriyyədəkindən daha yaxşı olduğuna əminliyim üçün çox gözəl imkan yarandı. Qeyd etmək istəyirəm ki, multikulturalizmin Azərbaycan modeli mədəni müxtəlifliyin ən yaxşı modelidir. Azərbaycan, onun qonaqpərvərliyi, xüsusilə də mətbəxi haqqında təəssüratlarımı dostlarımla, ailə üzvlərimlə bölüşdüm. Mən Azərbaycan vətəndaşı olmaq istəyirəm. Mən öz ölkəmə, Azərbaycanı isə öz  ölkəm sayıram, yalnız ən yaxşı olan nə varsa, onu arzulayıram.



**Nataliya Nikolayeva - Ural Federal Universiteti (Rusiya):**

«Azərbaycan multikulturalizmi» kursu üzrə mühazirələrdən çoxmillətli, tolerant ölkə kimi Azərbaycan haqqında bilgilərim var idi, praktikada isə mən Azərbaycan multikulturalizmi ilə yalnız Nabranda keçirilən «Yay məktəbi»ndə tanış oldum. «Yay məktəbi» kimi layihələr olduqca maraqlı və əyləncəlidir.



**Momçil Şopov - Müqəddəs Kliment Oxridski adına Sofiya Universiteti (Bolqarıstan):**

2015-ci ilin iyulunda Bakıda və Nabranda "Yay məktəbi"ndə iştirak etməyim mənim üçün çox faydalı oldu, belə ki, mənim «Azərbaycan multikulturalizmi" fənni üzrə praktik biliklər almaq və Azərbaycan ziyalılarının nümayəndələri ilə görüşmək imkanım yarandı. Bundan başqa, mən sadə insanların, bu ölkənin vətəndaşlarının necə yaşadığını görə bildim. Və Azərbaycanda gördüklərim mənim üçün ibrətverici oldu. Buna görə, "Yay məktəbi"nin təşkilatçılarına çox minnətdaram. Mən Qırmızı

Qəsəbədə yəhudilərin kompakt yaşamaları barədə çox eşitmişdim və burda olmağı çoxdan arzulayırdım. Proqramda bu qəsəbəyə də səfərin nəzərdə tutulduğunu görəndə, özümü xoşbəxt hiss etdim. Əlbəttə, soruşacaqsınız - niyə? Dilçi kimi mənə yəhudi dilinin uzun əsrlər necə qorunub saxlandığı, onun modifikasiyalarının olub-olmaması çox maraqlı idi.

**Etibar Nəcəfov:**

«Yay məktəbi»ndə oxunan mühazirələrdən hansılarını xatırlayırsınız?

**Jannet Nikolova:**

«Yay məktəbi»ndə müəllimlər bizə materialı ən başa düşülən şəkildə təqdim edirdilər. Bütün mühazirələr, xüsusilə də, Azərbaycanın tarixi və siyasəti ilə bağlı olanlar, xoşuma gəldi. Mən tarixlə maraqlanıram və buna görə də Qafqaz Albaniyası haqqında mühazirə mənə maraqlı idi. Öz növbəsində, Azərbaycanda müxtəlif dinlərin birgə mövcudluğu haqqında mühazirə də çox dolğun idi. Ən çox xoşuma gələn isə praktik tərəf, Azərbaycan xalqının, o cümlədən də, Azərbaycanda yaşayan milli azlıqların tarixi və mədəniyyətləri ilə tanışlığım oldu.




Professor Klaus Volf və professor Etibar Nəcəfov "Yay məktəbi" iştirakçılarına «Azərbaycan və Alman multikulturalizminin müqayisəli təhlili» mövzusunda mühazirə oxuyurlar.



**Şükufə Əhmədli - Azərbaycan Texniki Universiteti (Azərbaycan):**

Mən Jannetlə razıyam ki, bütün mühazirələr maralı və məzmunlu idi. Vətənim, Azərbaycan haqqında müxtəlif istiqamətlər üzrə biliklərimi dərinləşdirmək mənim özüm üçün maraqlı idi. İxtisasımın daha çox texniki sahəyə aid olmasına baxmayaraq, «Yay məktəbi»ndən sonra məndə tarixə, özəl olaraq isə, Azərbaycanın qədim tarixinə maraq yarandı. Mənim üçün ən yaddaqalan «Alman və Azərbaycan multikulturalizminin müqayisəli təhlili» mövzusunda mühazirə oldu. Bu mühazirəni Almaniyanın Auqsburq Universitetinin professoru Klaus Volf və Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidmətinin baş məsləhətçisi professor Etibar Nəcəfov oxudular. Onlar bir sıra aktual və maraqlı məsələlərə toxundular. Lakin məndə ən güclü təəssürat doğuran Azərbaycan Respublikasının Millətlərarası, Multikulturalizm və Dini Məsələlər üzrə Dövlət Müşaviri, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi Himayədarlar Şurasının sədri akademik Kamal Abdullayevlə görüş oldu. «Azərbaycan dövlətinin siyasi kursunda tolerantlıq və multikulturalizm» mövzusunda mühazirə, eləcə də Milli Məclisin deputatı, AŞPA-da Azərbaycan nümayəndə heyətinin üzvü professor Sahibə Qafarovanın və BBMM-in icraçı direktoru professor Azad Məmmədovun çıxışları da çox məzmunlu idi.

**Anastasiya Yurçenko:**

Bəli, mən də Azərbaycandan olan rəfiqəm Şükufənin dediklərinə qoşuluram. Bütün mühazirələr çox maraqlı idi. Mən də professor Klaus Volfun və professor Etibar Nəcəfovun oxuduqları «Alman və Azərbaycan multikulturalizminin müqayisəli təhlili» mövzusunda mühazirəni qeyd etmək istəyirəm. Müxtəlif ölkələrdən olan mütəxəssislərin multikulturalizm sahəsində öz ölkələrinin təcrübəsindən danışmaları, öz dövlətlərinin multikultural siyasətini müqayisə etmələri çox maraqlı idi. Professor Aleksandr Qennadyeviç Nesterovun «Müqayisəli multikulturalizm» mövzusunda oxuduğu mühazirədən də multikulturalizm, Qərb ölkələrində tolerantlıqla bağlı mövcud problemlər haqqında daha ətraflı məlumat aldıq. Bu mühazirəni də qeyd etmək istərdim.



**Françeska Ekvestre - Sapiyenza Universiteti (İtaliya):**

«Alman və Azərbaycan multikulturalizminin müqayisəli təhlili» mövzusunda mühazirə mənim də çox xoşuma gəldi. Professor Həcər Verdiyevanın oxuduğu Qafqaz Albaniyası haqqında mühazirə də çox məzmunlu və maraqlı idi. Mən Azərbaycanın ədəbiyyatı, tarixi və geosiyasəti haqqında biliklər qazanmaq istərdim. Azərbaycan ədəbiyyatında məni ən çox Nizami Gəncəvinin yaradıcılığı, onun əsərləri, sufizmin Azərbaycan ədəbiyyatına təsiri, Azərbaycan və İtaliya ədəbiyyatlarının müqayisəli təhlili maraqlandırır. Tarixdə məni ən çox aşağıdakı mövzular maraqlandırır: Azərbaycan Herodotun əsərlərində; müstəqillik qazanılandan sonra dinin rolu; müstəqillik qazanılandan sonra millətlərarası münasibətlər sahəsində siyasət. Geosiyasətə gəldikdə isə, mən burada aşağıdakı məsələləri öyrənmək istərdim: enerji mərkəzi kimi Azərbaycanın Cənubi Qafqazda strateji mövqeyi; türkdilli ölkələrlə Yaxın Şərq ölkələri arasında vasitəçi kimi Azərbaycanın rolu.

**Etibar Nəcəfov:**

Tədrislə yanaşı proqrama bir sıra əyləncəli tədbirlər də daxil edilmişdi. Hansı əyləncəli tədbirlər daha çox xoşunuza gəldi? «Yay məktəbi» ilə bağlı təəssüratlarınızı yaxınlarınızla, dostlarınızla, həmkarlarınızla, müəllimlərinizlə bölüşmüsünüzmü?

**Anastasiya Yurçenko:**

Bizə təklif olunan əyləncəli tədbirlərin hamısı xoşuma gəldi. Lakin ən çox bəyəndiyim «Yallı» Azərbaycan rəqsinin öyrənilməsi, eləcə də Şahdağ turizm kompleksi ilə tanışlıq və Bakıda sahil gəzintisi oldu. Evə qayıtdıqdan sonra mən təəssüratlarımı, bəlkə də, rast gəldiyim hər kəslə bölüşürəm. Əlbəttə, hər şey barədə qohumlarıma, kurs yoldaşlarıma və dostlarıma danışmışam. Onlar söylədiklərimə heyran olurdular.



**Sevinc Cabbarlı - Bakı Slavyan Universiteti (Azərbaycan):**

Hər şey maraqlı idi. Mühazirə və praktik tədbirlərin birləşməsi «Yay məktəbi»ni maraqlı etdi. Əyləncəli tədbirlərdən «O olmasın, bu olsun» filminə tamaşanı qeyd etmək istərdim. Xaricdən gələn qonaqlarımızın reaksiyasını izləmək maraqlı idi. Film çoxlu suallara səbəb oldu. Onlara aydın olmayan bəzi məqamları izah etmək xoş idi.



**Konstiantin Tsertsvadze - Tbilisi Dövlət Universiteti (Gürcüstan):**

Şübhəsiz, «Yay məktəbi» iştirakçıların gözləntilərini ötüb keçdi. «Öz ölkəni təqdim et» müsabiqəsini və əlbəttə ki, «Yallı» rəqsini xatırlamamaq olmaz. Bu rəqsin smartfona yazılmış melodiyası məndə indi də qalır və ona tez-tez qulaq asıram, Azərbaycanda olduğumuz hər unudulmaz saniyəni xatırlayıram…

**Şükufə Əhmədli:**

Azərbaycanda yaşasam da, olduğumuz regionlarda Azərbaycanla bağlı bir çox məqamlarla tanış olmaq, bu vaxta qədər görmədiyim çoxlu tarixi yerləri görmək, tarixi şəxsiyyətlərin ev-muzeylərində olmaq, etnik qruplar, müxtəlif konfessiyaların təmsilçiləri haqqında yeni bilgilər almaq üçün unikal imkanlar qazandım.

Yay məktəbinin bağlanmasından artıq iki ay keçsə də, mən o günləri xatırlamaqda, təəssüratlarımı bölüşməkdə davam edirəm. "Yay məktəbi"ndə iştirakım vaxtı qazandığım yeni dostlarımla əlaqə saxlayıram.

**Mariam Okreşidze:**

Mən hansısa bir tədbiri seçib ayıra bilmirəm, çünki «Yay məktəbi» ərzində bizə təklif olunan bütün tədbirlər, axşamlar, görüşlər maraqlı və əyləncəli idi. Bir sözlə, bütün tədbirlər xoşuma gəldi. Hər şey ən yüksək səviyyədə, olduqca maraqlı, yetərincə intellektual və əyləncəli idi. Lakin ən çox xoşuma gələn «Yallı» Azərbaycan rəqsinin öyrənilməsi oldu.

Bu gün ətrafımda elə bir insan qalmayıb ki, mən ona olduqca gözəl səfərim barədə danışmamış olum. Hər şeyi birnəfəsə danışarkən, mən özümü yenidən Azərbaycanda hiss edirəm. «Odlar ölkəsi» haqqında təəssüratlarımı, oradakı yaşantılarımı, hisslərimi bölüşdüyüm hər kəs, düşünürəm ki, bütün bunları özləri də duyur, məni dinləyərkən sanki Azərbaycanda olurlar.

**Etibar Nəcəfov:**

İndi isə «Yay məktəbi»nin «Azərbaycan multikulturalizmi» fənni üzrə mühazirələri dinləməmiş iştirakçılarına müraciət edirəm. Əvvəllər multikultural, tolerant ölkə kimi Azərbaycan haqqında məlumatınız var idimi? Öz universitetinizdə «Azərbaycan multikulturalizmi» üzrə mühazirələr kursunu dinləmək istərdinizmi?



**Aleksey Xaritonyuk - Minsk Dövlət Linqvistik Universiteti (Belarus):**

Vətənimdə olarkən Azərbaycan haqqında məlumatım çox deyildi. Amma bilirdim ki, Azərbaycan dünyəvi dövlətdir və regionun ən stabil ölkələrindən biridir. Mən bilirdim ki, Bakının heyrətamiz memarlığı var, bir çox hadisələr isə, məsələn, Avropa Oyunları KİV-də işıqlandırılırdı. «Yay məktəbi»nə gəldikdən sonra isə məndə olan məlumat əhəmiyyətli dərəcədə artdı. Başqa sözlə, «Yay məktəbi» mənim bu ölkə haqqında bilgilərimi əhəmiyyətli dərəcədə zənginləşdirdi. «Yay məktəbi»ni unikal təcrübə saymaq olar, çünki bu tədbir bizə ölkənin regionlarını görmək və yerli gənclərlə ünsiyyətdə olmaq, eləcə də Azərbaycan mədəniyyətinin özəllikləri haqqında çox şey öyrənmək imkanı verdi. «Yay məktəbi»ndə bizə bağışlanan kitablar, özəl olaraq isə virtual «Dəyirmi masa»ların kitab şəklində nəşr edilmiş materialları («Müasir Azərbaycanda sosial-iqtisadi və mənəvi inkişafın harmoniyası» və «Multikultural təhlükəsizlik») da faydalı oldu.

Öz universitetimdə «Azərbaycan multikulturalizmi» kursunda iştirak etmək istəyimlə bağlı sualınıza belə cavab verə bilərəm: əgər bu kurs mənim universitetimdə də tədris olunsaydı, mütləq onda iştirak edərdim.



**Mikele Zanessi - Milan Universiteti (İtaliya):**

Azərbaycanda yay məktəbi - həyatımda ən yaxşı hadisələrdən biridir. «Yay məktəbi»ndə iştirak etməzdən əvvəl Azərbaycanın həyatının bu maraqlı sahəsi - Azərbaycan multikulturalizmi haqqında məlumatım yox idi. Təəssüf ki, İtaliyada sizin gözəl ölkəniz, xalqınızın həyat tərzi barədə informasiya qıtlığı mövcuddur. Mənim respublikanızın bu özəl cəhətini gerçəklikdə görmək imkanım oldu. Görkəmli professorların mühazirələri mənə gördüklərimin başa düşülməsinə, Azərbaycandan olan uşaqlarla söhbətlərimiz isə xalqın adətlərinin və mentalitetinin öyrənilməsinə kömək etdi. Həm də bu ölkəni daha yaxşı tanımaq üçün bir daha Azərbaycana gəlmək, Azərbaycan ailəsində yaşamaq istərdim.

Təəssüf ki, İtaliyanın Sapienza universitetində tədris olunan «Azərbaycan multikulturalizmi» fənni mənim universitetimdə tədris olunmur, bütövlükdə Qafqaz regionu üzrə araşdırmalar aparılmır. Azərbaycanda əldə etdiyim təcrübədən sonra öz vətənimdə, İtaliyada Azərbaycanın təmsilçisi olmaq istərdim ki, ölkənizin gözəlliyi və energetikası haqqında hamıya danışa bilim. Düşünürəm ki, Azərbaycan öz multikulturalizm modelini müxtəlif xalqların, müxtəlif konfessiyaların nümayəndələrinin dinc yanaşı yaşaması modeli kimi, xüsusilə də, bu cür yanaşı yaşamağın vacib göründüyü müasir dövrdə ixrac edə bilər.



**Gediminas Laskauskas - Vitautas Maqnus Universiteti (Litva):**

İştirak etdiyim «Yay məktəbi»ndə mən Azərbaycan, eləcə də onun unikal fenomeni – multikulturalizm haqqında nəzəri və praktik biliklərimi genişləndirə bildim. Biz təkcə Azərbaycanın tarixi, adət-ənənələri, mədəniyyəti haqqında biliklər əldə etmədik, həm də şəhərlərin küçələrini gəzərkən, yerli əhali ilə ünsiyyətdə olarkən bütün bunları hiss etdik. Əvvəllər mənə məlum olmayan sahələrə aid, xüsusilə də, dinin multikultural yanaşmanın formalaşmasına olan təsiri, bu ölkədə müxtəlif etnik və konfessional qruplara mənsub insanların yanaşı yaşamaları, bütövlükdə Azərbaycan xalqının tarixi kökləri haqqında bəzi yeni faktlar öyrənmək

imkanım oldu. Əlbəttə, Azərbaycanın multikultural və tolerant ölkə olması barədə bəzi məlumatlarım var idi, lakin onlar çox məhdud idi. Mən hazırda başqa ölkələrdə baş verənlərə tamamilə zidd olaraq, multikulturalizmin bu cür unikal nümunəsi ilə gerçəklikdə tanış olduqda çox heyrətləndim. Bu baxımdan Azərbaycan müstəsna bir nümunədir.

Mən Litvadan olan komandanın beynəlxalq «Yay məktəbi»nə gəlməzdən əvvəl «Azərbaycan multikulturalizmi» fənni üzrə mühazirələrdə iştirak etməmiş yeganə üzvüyəm. Lakin çox istəyərdim ki, yaxın gələcəkdə bu kursun mühazirələrini dinləyim.



**Aleksandra Deroma - Sapienza Universiteti (İtaliya):**

«Yay məktəbi» mənə ölkənizlə, onun tarixi, mədəniyyəti ilə tanış olmaq imkanı verdi. Azərbaycanın çoxkonfessiyalı, tolerant ölkə olması haqqında məlumatım var idi. «Yay məktəbi»ndə olduğum müddətdə gördüklərim Azərbaycan haqqında bilgilərimi zənginləşirdi. Sizin ölkəniz məni çox cəlb etdi. Mənə hər şey maraqlıdır. Lakin mən Azərbaycanı daha ətraflı, necə deyərlər, müxtəlif rakurslardan öyrənmək istərdim.

Mən də çox istəyirəm ki, «Azərbaycan multikulturalizmi» kursuna yazılam. Düşünürəm ki, bu fənlərarası kurs Azərbaycanla daha yaxından tanış olmağıma kömək edər.

**Etibar Nəcəfov:**

Gələcəkdə Azərbaycanla bağlı hər hansı bir elmi-tədqiqat işi (dissertasiya, elmi məqalə və s.) aparmaq istərdinizmi?



**Yevgeniya Şilyayeva - Ural Federal Universiteti (Rusiya):**

Bu, mənim Azərbaycana ilk səfərim idi. Səfərdən əvvəl də məni burada nə gözlədiyi haqda müəyyən təsəvvürüm var idi. «Yay məktəbi»ndə mən çoxlu yeni

və maraqlı şeylər öyrəndim. Çoxlu müxtəlif tədbirlər oldu, lakin onlardan biri ən çox xoşuma gəldi – bu, «O olmasın, bu olsun» filminin tamaşası idi. Tamaşa məndə «Azərbaycan kinosunda və incəsənətində multikulturalizmin rolu və əksi» mövzusunda tədqiqat aparmaq ideyası doğurdu. Buna görə də mən Azərbaycan incəsənəti, mədəniyyəti barədə daha çox bilmək istərdim.

**Jannet Nikolova:**

Azərbaycanda yaşayan etnik azlıqlarla bağlı hər şey məni çox maraqlandırır. Onlar haqqında bizə mühazirələrdə danışdılar. Azərbaycanda multikulturalizmin tarixi inkişafı, etnik azlıqların özünəməxsusluğunun qorunması, bir çox xalqların əsrlər boyu yanaşı yaşaması məni, xüsusilə, maraqlandırır. Əgər imkan olarsa, mən bu mövzuda elmi araşdırma aparmaq və məqalə yazmaq istərdim. Azərbaycan haqqında, «Yay məktəbi» və bütövlükdə multikulturalizm haqqında məqaləmi Bolqarıstanın tanınmış həftəlik qəzetlərindən birində artıq çap etdirmişəm.

**Konstantin Tsertsvadze:**

Azərbaycan haqqında daha çox şey öyrənmək istərdim. Gələcək elmi tədqiqatımın mövzusu ilə bağlı isə bunu deyə bilərəm: məhz Azərbaycanın bir çox aparıcı Avropa dövlətləri üçün nümunə olduğunu sübut etmək üçün Azərbaycan multikulturalizminin əhəmiyyəti məsələnin üzərində işləmək istəyirəm.

**Aleksey Xaritonyuk:**

Gələcəkdə postsovet tədqiqatları sahəsində işləməyi mümkün sayıram. İndiyə kimi bir çox postsovet ölkələrində olmuşam - Litvada, Latviyada, Estoniyada, Rusiyada, Ukraynada və Azərbaycanda. Bizim ölkələrimiz arasında ümumi məqamlar çoxdur, eyni zamanda da indi hər ölkənin öz inkişaf yolu var, bu da komparativ tədqiqatlar üçün nəhəng bir sahədir. İstənilən halda, Azərbaycan multikulturalizm, diskriminasiyanın mövcud olmaması və xarici siyasətin çoxvektorluluğu kimi sahələrdə başqa ölkələr üçün nümunə kimi çıxış edə bilər.



**Nino Jvaniya - Tbilisi Dövlət Universiteti (Gürcüstan):**

Sual lap yerinə düşdü, çünki bu il mən doktoranturaya girməyə hazırlaşıram və artıq mövzu da seçmişəm – «Multikultural cəmiyyətdə dil siyasəti». Öz tədqiqatımda Azərbaycanda və Gürcüstanda dil siyasətinin müqayisəli təhlilini aparmaq istəyirəm.

**Mariam Okreşidze:**

Multikulturalizmin ədəbiyyatda rolunun nəzərdən keçirildiyi mühazirədən sonra məndə «Müasir gürcü, rus və Azərbaycan ədəbiyyatlarında multikulturalizm problemi, onun təsviri və rolu» mövzusunda elmi tədqiqat aparmaq ideyası yarandı. Bu tədqiqatı uğurla aparmaq üçün mənə Azərbaycanı hərtərəfli və daha dərindən öyrənmək lazımdır. O cümlədən Azərbaycan xalqının mədəniyyətini, dilini və, xüsusilə, ədəbiyyatını daha ətraflı öyrənmək. Dövlət müşaviri akademik Kamal Abdullayevin mühazirəsi zamanı belə bir məlumat aldım ki, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi "Azərbaycan multikulturalizminin ədəbi-bədii, elmi-fəlsəfi və siyasi qaynaqları" mövzusunda silsilə tədqiqatlar nəşrə hazırlayır. O kitabları oxumaq istərdim. Yəqin ki, ingilis dilinə tərcümə olunacaqlar.

**Frančeska Ekvestre:**

Mən Azərbaycanda müxtəlif dini konfessiyaların rolunu, onların tarixini, xarakterik əlamətlərini və ölkədə tolerantlığın inkişafına verdikləri töhfəni tədqiq etmək istərdim. Çox istərdim ki, sufizmi tədqiq edim.



**Xumar Əvəzli - Azərbaycan Dövlət iqtisad Universiteti (Azərbaycan):**

«Yay məktəbi»ndə iştirakım zamanı başa düşdüm ki, «Azərbaycan multikulturalizmi əcnəbi tələbələrin gözü ilə» mövzusunda məqalə yazmaq istəyirəm.

Müxtəlif ölkələrdən gəlmiş tələbələrlə ünsiyyətdə olarkən Azərbaycandan danışarkən, ölkəmiz haqqında təəssüratlarını bölüşərkən onların gözlərinin necə parıldadığını görürdüm. Onlara hər şey maraqlı idi. Azərbaycandan danışarkən mən ilk növbədə istərdim ki, bizim tariximiz, mədəniyyətimiz, görməli yerlərimiz, inkişaf etmiş iqtisadiyyatımız və əlbəttə, multikulturalizmimiz yada düşsün. İndiki halda «Qış məktəbi»nin təşkili uğurlu tapıntıdır. Əcnəbi tələbələrə Azərbaycanın qış mənzərələrinin də göstərilməsini müsbət təşəbbüs hesab edirəm.

**Nataliya Nikolayeva:**

Bu qəbildən olan layihələrdə əməkdaşlığımı daha fəal və məhsuldar görürəm. Azərbaycan gənc, dinamik inkişaf edən, böyük gələcəyi və çox gözəl perspektivləri olan dövlətdir. Bununla bağlı «Azərbaycan multikulturalizm siyasətinin səmərəli nümunəsi kimi» mövzusunda elmi-tədqiqat işinə başlamaq istərdim.

**Etibar Nəcəfov:**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev çıxışlarında qeyd edir ki, artıq müasir dünyada ölkəmizin multikulturalizmlə bağlı təcrübəsi öyrənilir. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin 2015-ci ildən başlayaraq uğurla həyata keçirdiyi "Xarici ölkə və yerli universitetlərdə "Azərbaycan multikulturalizmi" fənninin tədrisi" adlı layihə xarici ölkələrdə Azərbaycanın multikulturalizm sahəsindəki təcrübəsinə artan marağın göstəricisidir. Bir sıra xarici ölkə universitetləri bu fənni öz tədris proqramlarına daxil edərək Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinə onun tədrisinin təşkili ilə bağlı rəsmi şəkildə müraciət edirlər. Cari tədris ilində daha 4 xarici ölkə universiteti - Lusofona Humanitar və Texnologiya Universiteti (Potuqaliya), Poltava İqtisadiyyat və Ticarət Universiteti (Ukrayna), Frayburg Universiteti (İsveçrə) və Erciyez Universiteti (Türkiyə) "Azərbaycan multikulturalizmi" fənninin tədrisini təşkil etmişdir. Yaxın gələcəkdə bu fənni tədris etməyə hazır universitetlər sırasında ABŞ-ın Hyuston Universitetini, Almaniyanın Auqsburq və Vürzburq universitetlərini, Polşanın Varşava Universitetini, İndoneziyanın Gadya Mada Universitetini, Rusiyanın Xalqlar Dostluğu Universitetini, İspaniyanın Komplutense Universitetini və bir sıra başqa universitetləri qeyd etmək olar. Xüsusi vurğulamaq istərdim ki, haqqında danışdığımız «Yay məktəbi» ilə yanaşı, Vətənimizin təbii, mənəvi üstünlüklərini hərtərəfli təqdim etmək məqsədilə "Qış məktəbləri" də təşkil

ediləcəkdir. Azərbaycan ilin hər fəslində gözəldir və biz bunu öz dostlarımıza elə bu cür də təqdim etmək istəyirik.

İndi isə son sualın vaxtı yetişdi. Son sualım hamınıza aiddir. Biz «Yay məktəbi» zamanı sizin Azərbaycana marağınızı Azərbaycana məhəbbətə çevirə bildikmi?

**Hamı:**

Çevirə bildiniz. Əlbəttə, bu baş verdi.

**Etibar Nəcəfov:**

Hamınıza iştirak üçün təşəkkür edirəm.



«Yay məktəbi» iştirakçılarının Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri akademik Kamal Abdullayevlə görüşü

Поездка участников летней школы в туристический комплекс Шахдаг, Гусар.



# Интерес к Азербайджану перерастает в любовь к Азербайджану

(Азербайджанский мультикультурализм
глазами местных и иностранных студентов)

# От редакции:

Бакинский международный центр мультикультурализма (БМЦМ) в весеннем семестре 2014-2015-го учебного года в семи зарубежных университетах – Софийском университете св. Климента Охридского в Болгарии, Тбилисском государственном университете им. Иванэ Джавахишвили в Грузии, Уральском федеральном университете им. первого Президента России Б.Н.Ельцина в Российской Федерации, Литовском эдукологическом университете, Карловом университете в Чехии, Римском университете Ла Сапиенза в Италии, Белорусском государственном университете – приступил к преподаванию предмета «Азербайджанский мультикультурализм». Одновременно началось преподавания указанного предмета в ряде азербайджанских университетов.

Как составной компонент успешно реализуемого Бакинским международным центром мультикультурализма проекта «Преподавание предмета «Азербайджанский мультикультурализм» в зарубежных и отечественных университетах», если выразиться более конкретно, как его продолжение, с 21 июля по 1 августа 2015-го года в одном из живописных уголков нашей страны – Набрани для студентов зарубежных и азербайджанских университетов была организована международная «Летняя школа» под названием «Мультикультурализм как образ жизни в Азербайджане: изучай, исследуй, делись».

Для участия в «Летней школе» поступило более 1500 обращений из 49 стран. В результате отбора 49 студентов из 12 зарубежных стран и 19 азербайджанских студентов получили право быть участниками этой школы. В работе первой «Летней школы» приняли участие 23 иностранных и местных лектора. В рамках «Летней школы» были организованы 12 лекций, 2 круглых стола, 3 встречи, 1 дискуссия. В соответствии с программой были прослушаны лекции профессора Аугсбургского Университета из Германии Клауса Вольфа, заместителей министра молодёжи и спорта Азербайджанской Республики Интигама Бабаева и Исмаила Исмаилова, заместителя председателя Государственного комитета Азербайджанской Респуб-

лики по работе с религиозными организациями Гюндуза Исмаилова, председателя Общины горских евреев Милиха Евдаева, заведующего кафедрой европейских исследований Уральского федерального университета проф. Александра Геннадьевича Нестерова, сотрудников Службы государственного советника по межнациональным вопросам, вопросам мультикультурализма и религии проф. Этибара Наджафова и проф. Хаджар Вердиевой, Анны Байрамовой, Саррафа Гусейнова, заведующего кафедрой азербайджанской литературы Бакинского славянского университета (БСУ) проф. Рахили Гейбуллаевой, победителя песенного конкурса «Евровидение - 2011», выпускника БСУ Эльдара Касумова . Были организованы  два круглых стола: «Толерантность и мультикультурализм в государственной политике Азербайджана» с участием депутата Милли Меджлиса Азербайджанской Республики, члена парламентской делегации Азербайджана в ПАСЕ проф. Сахибы Гафаровой и исполнительного директора БМЦМ проф. Азада Мамедова, и «Совершенные в Азербайджане преступления геноцида. Карабахская война» с участием докторанта Университета Хайфы (Израиль), эксперта по международным отношениям Арье Гута. Состоялись встречи с Государственным советником Азербайджанской Республики по межнациональным вопросам, вопросам мультикультурализма и религии, председателем Попечительского совета БМЦМ академиком Камалом Абдуллаевым, заслуженным деятелем искусств Азербайджана, писателем Натигом Расулзаде и представителем Азербайджанского фонда творчества, поэтом Гисметом Рустамовым. В рамках  «Летней школы» состоялась дискуссия «Проблемы политики мультикультурализма в Европе», которой руководили директор Института философии Национальной Академии Наук Азербайджана проф. Ильхам Мамедзаде и заведующий отделом аналитики БМЦМ доц. Нариман Гасымзаде. Состоялись презентации с участием исполнительного директора Бакинского международного центра мультикультурализма проф. Азада Мамедова, исполнительного директора Фонда Знаний при Президенте Азербайджанской Республики Октая Самедова и ректора Бакинского славянского университета проф. Асифа Гаджиева.

За виртуальным "круглым столом", организованным Службой государственного советника Азербайджанской Республики по межнациональным вопросам, вопросам мультикультурализма и религии, вместе со студентами зарубежных и азербайджанских университетов, участвовавшими в «Летней школе» под названием «Интерес к Азербайджану перерастает в любовь к Азербайджану (Азербайджанский мультикультурализм глазами местных и иностранных студентов) проходят обсуждения вокруг этого мероприятия.



**Этибар Наджафов – профессор, главный консультант Службы государственного советника Азербайджанской Республики по межнациональным вопросам, вопросам мультикультурализма и религии (Азербайджан):**

Каждый успешный шаг в деле пропаганды азербайджанского мултикультурализма приближает нас к поставленным перед нами Президентом страны господином Ильхамом Алиевым идеологическим целям. В перспективе наша работа в данной области опирается на широкую, разветвлённую стратегическую деятельность. «Летняя школа», о которой сейчас говорим, прошла в расположенном в Набрани Образовательно-рекреационном центре Конфедерации профсоюзов Азербайджана.Пользуясь случаем, хочу выразить нашу благодарность руководству Конфедерации.

Проект «Летняя школа» продолжила проводимую Бакинским международным центром мультикультурализма работу по преподаванию в зарубежныхуниверситетахпредмета«Азербайджанскиймультикультурализм». Как отметил Государственный советник Азербайджанской Республики по межнациональным вопросам, вопросам мультикультурализма и религии Камал Абдуллаев, если основной целью преподавания предмета «Азербайджанский мультикультурализм» в зарубежных университетах было распространение в зарубежных странах накопленного нашей страной в области мультикультурализма опыта и стимулирование у иностранных студентов интереса к Азербайджану, то основная цель проекта «Летней школы» - перерастание этого интереса в любовь к нашей стране, превращение их в настоящих друзей Азербайджана.

Приветствуя местных и иностранных студентов, принимающих участие в работе круглого стола, для начала хочу обратиться к ним с вопросом: Обогатило ли участие в «летней школе» ваши знания об азербайджанском мультикультурализме и Азербайджане в целом?



**Анастасия Юрченко - Белорусский государственный университет (Беларусь):**

Курс «Азербайджанский мультикультурализм» преподавался нам с февраля по май 2015-го года, а «Летняя школа» помогла изучить ситуацию

с мультикультурализмом в Азербайджане более основательно. Благодаря «Летней школе» мы больше узнали о людях Азербайджана, об истории этой страны, о Кавказской Албании, Нагорном Карабахе. Рада отметить, что знания, полученные при прослушивании курса «Азербайджанский мультикультурализм», совпадают с увиденным в Азербайджане. Во время пребывания в таких городах, как Хачмаз, Губа, Гусар мы стали свидетелями мирного сосуществования людей с разными мировоззрениями.



**Мариам Окрешидзе - Тбилисский государственный университет (Грузия):**

В Азербайджане я была впервые и открыла здесь много нового для себя. Эта страна полностью заключила меня в свои объятия, обогатила моё мировоззрение. Азербайджан так очаровал, так вдохновил меня своей неповторимостью, что я до сих пор всё связанное с ним вспоминаю эмоционально и во всех подробностях. За время участия в «Летней школе» я узнала довольно много о культуре Азербайджана, об истории и, конечно же, о традициях азербайджанского народа.



**Жаннет Николова, Софийский университет им. Св. Климента Охридского (Болгария):**

Весной у себя в университете я изучила предмет «Азербайджанский мультикультурализм». Мне он очень понравился. Достаточно интересный и содержательный предмет. Однако, именно организованная для нас в Азербайджане «Летняя школа» придала окончательную оформленность моим знаниям об азербайджанской модели мультикультурализма. Все лекции, которые я прослушала в «Летней школе», были обстоятельными и насыщенными. Я смогла получить ответы на все интересующие меня и важные для меня вопросы, связанные с «Азербайджанским мультикультурализмом».



**Ахмад Абабнех - Университет Ла Сапиенза (Италия):**

Я изучал и исследовал модель азербайджанского мультикультурализма ещё в Италии, во время моих занятий в магистратуре. Позже у меня появилась прекрасная возможность убедиться в том, что на практике эта модель намного лучше, чем в теории. Хочу подчеркнуть, что азербайджанская модель мультикультурализма - самая лучшая модель культурного многообразия. Своими впечатлениями об Азербайджане, о его гостеприимстве, в особенности же о его кухне я поделился с друзьями, членами своей семьи. Я хочу стать гражданином Азербайджана. Я желаю своей стране, а Азербайджан я считаю своей страной, всего самого наилучшего.



**Наталия Николаева - Уральский федеральный университет (Россия):**

Из лекций по курсу «Азербайджанский мультикультурализм» я знала об Азербайджане как о многонациональной, толерантной стране, но на практике я познакомилась с азербайджанским мультикультурализмом только в прошедшей в Набрани «Летней школе». Такие проекты, как «Летняя школа», очень интересны и занимательны.



**Момчил Шопов - Софийский университет им. Св. Климента Охридского (Болгария):**

Участие в «Летней школе» в Баку и Набрани в июле 2015-го года было для меня очень полезным, так как я имел возможность получить практические знания по предмету «Азербайджанский мультикультурализм», встретиться с представителями азербайджанской интеллигенции. Помимо того, я смог увидеть, как живут простые люди, рядовые граждане этой страны. И то, что я увидел в Азербайджане, стало для меня поучительным. За это я очень

благодарен организаторам «Летней школы». Я много слышал о компактном поселении евреев в Красной Слободе и давно хотел её посетить. Я был счастлив, когда увидел, что программой предусмотрено посещение и этого поселка. Конечно, вы спросите - почему? Как лингвисту мне было интересно узнать, как сохранился еврейский язык в течение многих веков, были ли его модификации.

**Этибар Наджафов:**

Какие из прочитанных в «Летней школе» лекций вам запомнились?

**Жаннет Николова:**

Преподаватели в «Летней школе» преподносили нам материал в самой доступной форме. Мне понравились все лекции, но особенно те, которые были связаны с историей и политикой Азербайджана. Так как я увлекаюсь историей, то мне была интересна лекция о Кавказской Албании. В свою очередь, лекция о сосуществовании различных религий в Азербайджане тоже была весьма содержательной. Но больше всего мне понравилась практическая сторона, то, что я смогла ознакомиться с историей и культурой азербайджанского народа, в том числе – с культурой проживающих в Азербайджане национальных меньшинств.



**Шукюфа Ахмедли - Азербайджанский технический университет (Азербайджан):**

Я согласна с Жаннет, что все лекции были интересные и содержательные. Мне самой было важно углубить знания о своей родине - Азербайджане по разным направлениям. Несмотря на то, что моя специальность относится больше к технической сфере, после «Летней школы» у меня возник интерес к истории, в частности - к древней истории Азербайджана. Самой запоминающейся для меня стала лекция «Сравнительный анализ немецкого и азербайджанского мультикультурализмов». Её прочитали приехавший из Германии профессор Аугсбургского Университета Клаус Вольф и главный консультант службы Государственного советника по межнациональным вопросам, вопросам мультикультурализма и религии профессор Этибар Наджафов. Они затронули ряд интересных и актуальных вопросов. А больше всего

